Audit 1 (2020), Cild 27, səh. 94-103.
Audit 1 (2020), Vol. 27, pp. 94-103.

Əhmədova Turanə Vahid qızı,
iqtisad üzrə fəlsəfə doktoru,
Bakı Biznes Universiteti,
Ünvan: H.Zərdabi küç. 88a, AZ 1122, Bakı, Azərbaycan,
E-mail: turanaxmedov@mail.ru,
© Əhmədova T.V., 2020

UOT 334.7
JEL C38, C39

KLASTER YANAŞMASININ METODOLOJİ ASPEKTLƏRİ

X Ü L A S Ə

Tədqiqatın məqsədi. Bu gün dünyada klasterlər iqtisadiyyatın inkişaf etdirilməsi, onun rəqabətqabiliyyətinin yüksəldilməsi, ölkənin innovativ inkişaf relsinə keçirilməsində mühüm əhəmiyyət kəsb edir. Tədqiqatın məqsədi innovativ inkişafın mühüm aləti kimi klaster yanaşmanın metodoloji aspektlərini müəyyən etməkdən ibarətdir.

Tədqiqatın metodologiyası. Məqalədə iqtisadi təhlil obyekti kimi klasterin əsas xarakteristikaları ümumiləşdirilir, iqtisadi klasterləşmə prosesinin həyata keçirilməsini təmin edən innovativ iqtisadiyyatın əsas istiqamətləri göstərilir, klaster sisteminin əsas elementlərinin xarakteristikası verilir, iqtisadi klasterləşmənin metodologiyasının formalaşması zəruriliyi göstərilir.

Tədqiqatın tətbiqi əhəmiyyəti. Klaster strategiyasına əksər ölkələrdə innovativ inkişafın vacib aləti kimi baxılır. Klaster yanaşması olduqca perspektivlidir. Klasterlərin formalaşması və inkişafı bütövlükdə ölkənin, eləcə də onun regionlarının rəqabətqabiliy-yətinin və effektivliyinin yüksəldilməsində mühüm amil kimi istifadə oluna bilər.

Tədqiqatın nəticələri. Bu iş Azərbaycan Respublikasının Prezidenti yanında Elmin İnkişaf Fondunun maliyyə yardımı ilə yerinə yetirilmişdir – **Qrant - № EİF BGM-3-BRFTF-2+ /2017-15/15/5.**

Tədqiqatın orijinallığı və elmi yeniliyi. Məqalədə baxılan problemlərin həlli üzrə dünya təcrübəsindən çıxış etməklə müasir şəraitin tələblərinə uyğun yanaşmalar formalaşdırılmışdır. Klasterlərin öyrənilməsində tədqiqatlar yerinə yetirilmiş və sistemləşdirilmişdir. Müasir dövrdə klaster yanaşmanın fərqli xüsusiyyətləri aşkar edilmişdir.

Açar sözlər: innovativ iqtisadiyyat, klaster, klaster yanaşması, klaster strategiyası, iqtisadi klasterləşdirmənin metodologiyası.

G İ R İ Ş

İqtisadiyyatın müasir inkişaf səviyyəsi təsərrüfat praktikasında istehsal güclərinin təşkili ilə əlaqədar yeni formaların axtarılması və tətbiqini obyektiv zəruriyyətə çevirir. İqtisadiyyatın stabil inkişafının təmin edilməsi və təsərrüfat subyektlərinin iqtisadi fəaliyyətinin yüksəldilməsi menecmentin standart metod və alətlərindən istifadə edilməsi hesabına həlli hal-hazırda mümkün deyil. Bununla əlaqədar olaraq istər ölkəmizdə, istərsə də onun hüdudlarından kənarda bu sahə ilə məşğul olan alimləri və praktiki biznes işçiləri multiplikativ və sinergetik effektivliyin əldə edilməsi üçün iqtisadi inteqrasiya və interferensiya mexanizmlərinin axtarılmasına bir məqsəd kimi daha çox üstünlük verirlər. Belə bir interferensiyanın əlverişli forması istehsal güclərinin məkanca təşkili vasitəsi ilə əlahiddə götürülmüş region və ya iqtisadi ərazi çərçivəsində iqtisadi klasterlərin yaradılması və inkişafı hesab olunur.

Audit 1 (2020), Cild 27, səh. 94-103.
Audit 1 (2020), Vol. 27, pp. 94-103.

Tədqiqatın əsas məzmunu

Bu gün innovasiya mühitində baza hesab edilən sahələrin modernləşdirilməsi və daha yüksək texnoloji üstünlüklərə nail olunması kimi məsələlərin həll edilməsi zəruriliyi eyni zamanda istehsal sisteminin təşkilində klaster formasının malik olduğu potensialın öyrənilməsinə marağı artırır.

Müasir iqtisadiyyat innovativ fəaliyyətin inkişafına güclü impuls verir. Bu gün iqtisadi strukturların formalaşması kooperasiya, ixtisaslaşma, inteqrasiya və tərəfdaş münasibətlərinin inkişafı əsasında onların rəqabətqabiliyyətinin yüksəldilməsinə yönəlib (5, səh. 62).

Klasterlərin nəzəri-metodoloji və tətbiqi aspektləri hələ tam şəkildə formalaşma-dığından ölkəmizdə iqtisadi klasterləşmə, yəni klasterlərin yaradılması prosesi qanunauyğun olaraq hal-hazırda bazarın təsiri altında kortəbii həyata keçirilir.

Klasterlərin idarə edilməsi nəzəriyyəsi, onların yaradılması və fəaliyyəti ilə bağlı proseslərin tənzimlənməsi iqtisad elmində və praktiki olaraq Azərbaycan Respublikasında kifayət qədər inkişaf etməmişdir. Bu sahədə uzaq və yaxın xarici ölkələrdə toplanan təcrübənin ölkəmizdə adekvat olaraq tətbiqi isə ölkənin özünəməxsus sosial-iqtisadi və institusional şəraitini nəzərə almadan lazımi effekti təmin etməyə bilər.

Elmi mənbələrin təhlili klasterlərin tədqiqinə iki konseptual yanaşmanı ortaya qoyur:

1) *Mikroyanaşma* - ayrı-ayrı sahə və ərazilərdə (lokal, regional klasterlər) iqtisadi inkişafı stimullaşdırmağa imkan verən təşkilati forma kimi. Bu zaman bir şirkət hər iki müstəvidə bir neçə klasterin iştirakçısı kimi çıxış edir. Məsələn, ərzaq məhsullarının ticarəti ilə məşğul olan şəbəkə özündə iri ticarət mərkəzlərini birləşdirən coğrafi klasterin, digər tərəfdən isə qarışıq klasterin nümayəndələrindən (məhsulgöndərənlər, istehlakçılar, maliyyə şirkətləri, logistik vasitəçilər, xüsusi ticarət markası adı altında məhsul istehsal edən istehsalçı şirkətlər və s.) ibarət sahə klasterinin iştirakçısı ola bilər.

2) *Makroyanaşma* - milli iqtisadiyyatın (milli, transmilli klasterlər) inkişaf bloku kimi.

Bizim fikrimizcə, məhz makroyanaşma ölkənin sosial-iqtisadi modernizasiyası məsələsinə adekvat olaraq klasterləşmə modelinin işlənib hazırlanmasına imkan verir.

Bir qayda olaraq, klaster yanaşmanın baza hesab edilən metodoloji əsaslarını tədqiq edən müəlliflər bu metodun tətbiq edilməsinin aktuallığını təkrar-təkrar əsaslandırırlar. İqtisadi klasterləşmə prosesinin təşkilinin əsasında duran "klaster siyasəti", "klaster təşəbbüsü", "klaster texnologiyası", "klaster konsaltinqi" kimi fenomenlərin mahiyyətini müəyyənləşdirməyə səy göstərmirlər.

Ölkənin sosial-iqtisadi məkanında klasterləşmə proseslərinin idarə edilməsi üzrə fəaliyyət göstərən metodologiyanın formalaşdırılması üçün terminalogiyanın konkretləşdirilməsinə böyük ehtiyac vardır. İqtisadi klasterləşmə prosesi klaster nəzəriyyəsinin əsas müddəalarının bazası əsasında (onun abstrakt xarakterindən fərqli olaraq) həyata keçirilir. Dövlətin idarəetmə təsirləri həmişə konkret xarakter daşıyır, müəyyən istiqamətə malik olur və bazar iqtisadiyyatı şəraitində klasterləşmə alətlərindən istifadə etməklə ölkənin, regionun inkişafı ilə bağlı aktual məsələləri həll edir. Buna görə də həm klaster nəzəriyyəsinin obyekti, həm də dövlət idarəetmənin predmeti kimi klasterin dəqiq identifikasiyası vacibdir. Daha doğrusu, klasteri xarakterizə edən əlamətlərin necə təsnifləşdirilməsi, sadə formada sadalanmasından asılı olmayaraq tədqiqat zamanı klaster kimi bu və ya digər obyektin dəqiq identifikasiyası aparılmalıdır. Bununla əlaqədar olaraq klasterin xarakterik cəhətlərini və bu cəhətlərin qarşılıqlı əlaqəsini hərtərəfli öyrənmək lazım gəlir.

Klaster yanaşmasının nəzəri aspektləri bir sıra xarici ölkə alimləri tərəfindən işlənib hazırlanmışdır. Miqyasına və istiqamətinə görə bir-birindən fərqlənən çoxsaylı klaster növləri

Audit 1 (2020), Cild 27, səh. 94-103.
Audit 1 (2020), Vol. 27, pp. 94-103.

və anlayışları mövcuddur.

İnkişaf etmiş ölkələrdə klaster nəzəriyyəsi M, Enraytın, C. Daninqanın, R.Martinanın və Harvard Biznes məktəbinin (*Harvard Business School*) işgüzar inzibatçılıq kafedrasının professoru, beynəlxalq bazarlarda rəqabət strategiyası və rəqabət mübarizəsi sahəsində aparıcı mütəxəssis M.Porterin əməyi sahəsində praktiki olaraq 1990-cı illərin əvvəllərindən tətbiq edilməyə başlanıldı (4, səh. 112). Rusiya Federasiyasında isə klaster nəzəriyyəsinin praktiki tətbiqi M.K.Bandman, N.N.Kolosovoy, N.İ.Larina, İ.V.Pilipenko və s. adı ilə bağlıdır.

"Klaster" anlayışı adı altında müəyyən funksiyaların yerinə yetirilməsi (həyata keçirilməsi) məqsədi ilə ayrı-ayrı elementlərin (bu elementlərin birgə yaratdığı effekt ayrı-ayrı elementlərin yaratdığı effektdən böyükdür) vəhdəti başa düşülür. Bununla yanaşı "iqtisadi klaster" anlayışının da müəyyənləşdirilməsi mühüm əhəmiyyət kəsb edir. İqtisadi klaster - müvəffəq rəqabət aparan və birgə fəaliyyətləri nəticəsində sahə, regional, milli və dünya bazarında tutduqları əlverişli mövqeni qoruyub saxlayan firmalar qrupudur. Praktiki və nəzəri baxımdan klasterlərə marağın artması iqtisadiyyatda mobillik faktorunun güclənməsini stimullaşdırır. Lakin qeyd etmək lazımdır ki, klasterlər bu gün mahiyyətinə görə nə nəzəri, nə də praktik nöqteyi-nəzərdən tam inkişaf etməmişdir.

Bütövlükdə müəlliflərin hər biri klasterin spesifik cəhətlərini xarakterizə etməklə onun üç geniş təyinatını formalaşdırırlar (1, səh. 106-109):

- bu, adətən bu və ya digər elmi müəssisəyə (elmi-tədqiqat institutu, universitet və s.) bağlı olan yaxın, qohum sektorlar daxilində iqtisadi aktivliyin regional baxımdan məhdud formasıdır;
- bu, üfüqi istehsal zənciridir; istehsal prosesinin qarışıq mərhələləri klasterin nüvəsini (məsələn, məhsulgöndərən-istehsalçı-təchizatçı-müştəri zənciri) təşkil edən kifayət qədər dar sektorlardır. Bu kateqoriyaya əsas firmanın ətrafında formalaşan şəbəkə aid edilir;
- bu, yüksək aqreqasiya səviyyəsi ilə müəyyənləşən sənaye sahəsi (məsələn "kimyəvi klaster") və ya daha yüksək aqreqasiya səviyyəli sektorlar (məsələn, "aqrarsənaye klasterləri") toplusudur.

Kartel və ya maliyyə qruplarından fərqlənən klasterlərin əsasını, hər şeydən əvvəl, aralarında rəqabət münasibətləri saxlanılmaqla bir neçə güclü şirkət təşkil edir. Rəqiblərin, onların istehlakçıları və məhsulgöndərənlərinin konsentrasiyası istehsalın ixtisaslaşma səviyyəsinin yüksəlməsinə köməklik göstərir. Bu zaman klaster kiçik müəssisələr üçün yeni iş yerləri, fəaliyyət sahələri yaradır.

Klaster anlayışının təyinatına mövcud yanaşmaların təhlili göstərir ki, müəlliflər bu anlayışda əsas diqqəti qarşılıqlı əlaqədə olan şirkətlərin ərazi bağlılığı və klaster modeli çərçivəsində rəqabət üstünlüklərinin əldə edilməsi kimi iki mühüm məqama yönəldirlər. Ümumi şəkildə klaster adı altında özlərinin qarşılıqlı fəaliyyəti nəticəsində mövcud ərazinin rəqabət üstünlüyünü effektiv formada təmin edən ərazicə lokallaşdırılmış şirkətlər toplusu başa düşülür.

Müəlliflər bu yanaşmanı qəbul etməklə klasterə rəqabət mübarizəsi şəraitində rəqabət üstünlükləri nəzəriyyəsi və iqtisadiyyatın inkişaf etdirilməsi kontekstində nəzərdən keçirirlər. Lakin müəllif yanaşmalarında əsas diqqət klaster çərçivəsində rəqabət üstünlüklərinin açıq təzahür etdiyi baza hesab edilən sahələrin (şirkətlərin) aşkar edilməsinə yönəldilir. Müəyyən edilən tədqiqat obyekti-iqtisadi klasterlər öz tədqiqi üçün adekvat metodlar tələb edir. Hesab edirik ki, bu halda klasterlərin təhlili metodologiyasına əsaslanan xüsusi tədqiqat üsulundan istifadə etmək lazımdır.

Bu sahədə aparılan təhlillər klasterin spesifik xassələrini aşkar etməyə imkan verir. Spesifiklik ondan ibarətdir ki, hər bir müəllif aparılan tədqiqatın məqsədindən çıxış edərək

Audit 1 (2020), Cild 27, səh. 94-103.
Audit 1 (2020), Vol. 27, pp. 94-103.

bəzi xassələri nəzərə almadan başqa (digər birliklər üçün xarakterik olan) xassələrə daha çox üstünlük verir.

Klaster məsələlərinə aid ədəbiyyatların təhlili klasterin digər birləşmələr, birliklərdən fərqini müəyyənləşdirən elmi işləmələrin tələb olunan səviyyədə olmaması kimi bir problemi meydana çıxarmışdır. İqtisadi ədəbiyyatlarda müxtəlif şəbəkə formalı birliklərin müxtəlif növlərinə rast gəlmək mümkündür. İlk növbədə bura industrial şəbəkə, biznes-mərkəzlər, biznes-inkubatorlar, texnoparklar, texnopolislər kimi klasterlər aid edilir. Praktiki təcrübədən çıxış edərək belə qənaətə gəlmək olar ki, klasterlər bir çox hallarda şəbəkə formalı birliklərə oxşayır. Lakin nəzərə almaq lazımdır ki, bütövlükdə ölkə iqtisadiyyatının, o cümlədən iqtisadi regionların strateji inkişaf planına uyğun klaster modelindən istifadə edilməsi klasterin fərqli xüsusiyyətlərinin identifikasiyasını nəzərdə tutur.

Ölkə iqtisadiyyatının, o cümlədən regionların rəqabətqabiliyyəti və onun yüksəldilməsi istiqamətləri haqqında kompleks biliklərin formalaşdırılması fikrimizcə, "iqtisadi sistem" anlayışının dərk etməklə mümkündür. Bu və ya digər tədqiqatın qarşısında duran məqsəddən asılı olaraq bu anlayışın çoxsaylı traktovkası ona meyar prizmasından yanaşmağa və onu təşkil edən elementlərin spesifik xüsusiyyətlərinə diqqət yönəldilməsini tələb edir (Cədvəl 1).

Cədvəl 1.

Ənənəvi sahə yanaşması ilə müqayisədə idarəetməyə klaster yanaşmanın əsas fərqli cəhətləri

Sıra №si	Müqayisə üçün əsas parametrlər	Klaster yanaşmanın xarakte-ristikaları	Sahəvi yanaşmanın xara-teristikaları
1	Formalaşma prinsipi	Üfüqi və şaquli inteqrasiya, sahələr-arası qarşılıqlı fəaliyyətin optimallaş-dırılması	Texnoloji əlamət
2	İqtisadi artım potensialı	Müxtəlif elementlərin qarşılıqlı fəaliy-yəti ilə şərtləşən sinergetik effektivlik. Əsas iştirakçıların (iri müəssisələr, elmi mərkəzlər) mövcudluğu	İstehsalın intensifikasiyası
3	İnnovasiya potensialının aktivləşdirilməsi imkanları	Klasterin innovativ potensialını müəy-yənləşdirən ayrı-ayrı elementlərdə re-sursların konsentrasiyası hesabına əldə edilən innovativ aktivliyin yüksək sə-viyyəsi	İnnovasiyanı tətbiq edən sistemin ətalətliliyi, kommunikasiya problemləri
4	Məhsulların rəqabət-qabiliyyəti	Transaksion və nəqliyyat xərclərinin azaldılmasına səbəb olan klaster ele-mentlərinin konsentrasiyası hesabına artır	Bir sahə daxilində təkrar istehsal prosesini həyata keçirən müəssisələrin ərazicə zəif təmərküzləşməsi
5	İnvestisiya cəlbediciliyi	İnvestisiya resurslarından kompleks is-tifadə imkanları ilə müəyyənləşir	İnvestisiyanın effektivliyi investisiya yönəldilən obyektin imkanları ilə müəyyənləşir.
6	Kommunikasiyanın səviyyəsi	Klaster iştirakçıları arasında qarşılıqlı əlverişli münasibətlərə əsaslanan uzun-müddətli əlaqələr	Texnoloji və inzibati idarəetmə əlaqələri ilə müəyyənləşən sərt ierarxiya strukturu

Klaster yanaşması iqtisadi sistemə iqtisadi klasterlər prizmasından baxmağa imkan verir. Belə bir halda iqtisadi sistem iqtisadi klasterlər toplusunu özündə ehtiva edir. Klaster yanaşması konkret ərazi daxilində qarşılıqlı münasibətlərin strukturunun konkret firmanın

Audit 1 (2020), Cild 27, səh. 94-103.
Audit 1 (2020), Vol. 27, pp. 94-103.

iqtisadi maraqlarının təzahür etməsinə təsir mexanizmini formalaşdırır. Etimadın mövcudluğu və təşkilati baxımdan bir-birini tamamlama nəticəsində əldə edilən fayda və bu əsasda daima mübadilə və əlaqələrin inkişafı, eləcə də region və ya şəhər daxilində qarşılıqlı asılılığın dərk edilməsi məhsuldarlığın yüksəlməsinə, innovasiyanın genişlənməsinə, yeni biznes növlərinin yaranmasına gətirib çıxaran klaster daxili qarşılıqlı fəaliyyətə köməklik göstərir.

Daha geniş mənada klaster yanaşması iqtisadi sistemin strukturlaşması üsulları, iqtisadi inkişafın nəzəri və praktiki təşkili, eləcə də dövlət siyasətinin formalaşması üçün yeni, əlavə imkanların təmin edilməsini nəzərdə tutur. Klaster daxilində iştirakçılar arasında qarşılıqlı əlaqə və mübadilənin mövcudluğu bir firmanın əldə etdiyi iqtisadi nəticələrlə müqayisədə məhsuldarlığın artmasına güclü təsir edir (6, səh.19).

Eyni zamanda nəzərə almaq lazımdır ki, mahiyyətcə klaster anlayışının açıqlanmasına məhz kvaziinteqrasiya anlayışı müstəvisindən yanaşmaq daha məqsədəuyğundur. Kvazi-inteqrasiya – hüquqi cəhətdən mülkiyyət hüququnun rəsmiləşdirilmiş transferi olmadan iqti-sadi subyektlər arasında uzunmüddətli dayanıqlı əlaqələrin inkişafını nəzərdə tutan bir birlikdir. Kvaziinteqrasiya uzunmüddətli əməkdaşlıq zamanı şirkətlər arasında xüsusi kommu-nikasiya metodlarının yaradılmasına və daxili ziddiyyətlər əmələ gəldikdə xarici müdaxilə olmadan iştirakçıların özləri üçün müəyyən fəaliyyət qaydaları formalaşdırmasına imkan verir.

Beləliklə, klaster iqtisadi münasibətlərin təşkilinin yeni formasını özündə birləşdirir. İlkin olaraq klasterdən rəqabətqabiliyyətinin yüksəldilməsi üçün istifadə edilirdi. Lakin, iqtisadiyyatın modernləşdirilməsi, innovativ iqtisadiyyatın formalaşdırılması kursuna uyğun olaraq klasterdən daha geniş məsələlərin həll edilməsində (ölkənin, regionun və sahənin rəqa-bətqabiliyyətinin yüksəldilməsində; ümumdövlət sənaye siyasətinin aparılmasında; regional inkişaf proqramlarının işlənib hazırlanmasında; innovativ fəaliyyətin stimullaşdırılmasında; böyük və kiçik biznesin qarşılıqlı fəaliyyətinin tənzimlənməsində və s.) tətbiq edilməyə baş-lanıldı:

Klasterin xarakterik əlamətləri sırasına:

1) beynəlxalq və ya milli bazarlarda güclü rəqabət mövqeyinin və klaster iştirakçıla-rının yüksək eksport potensialının mövcudluğu. Rəqabət qabiliyyətinin indikatoru kimi multi-faktorlu məhsuldarlığın yüksək səviyyəsi, məhsul və xidmətlərin ixracda yüksək payı nəzərdə tutulur.

2) klasterlərin inkişafı üçün ərazinin rəqabət üstünlükləri: əlverişli coğrafi şərait, xam-mal resurslarının əlyetərliliyi, ixtisaslaşmış kadr potensialının, məhsulgöndərənlərin, ixtisas-laşmış tədris müəssisələrinin və elmi-tədqiqat təşkilatlarının, zəruri infrastrukturun mövcud-luğu;

3) aktiv qarşılıqlı fəaliyyət üçün imkanlar yaradan coğrafi konsentrasiya və klasterə yaxın müəssisələrin (təşkilatların) yerləşməsi. İndikator kimi mövcud regionun ixtisaslaşma səviyyəsini xarakterizə edən göstəricilərdən istifadə oluna bilər;

4) klaster daxili qarşılıqlı fəaliyyət nəticəsində pozitiv effektivliyin əldə edilməsinə imkan verən geniş iştirakçı seçiminin kifayət qədər olması. Burada da indikator kimi klasterə daxil olan müəssisələrdə (təşkilatlarda) məşğulluq səviyyəsini xarakterizə edən göstəriciləri nümunə göstərmək olar;

5) subkontraktasiya mexanizmindən istifadə, təhsil müəssisələri və tədqiqat təşkilatları

Audit 1 (2020), Cild 27, səh. 94-103.
Audit 1 (2020), Vol. 27, pp. 94-103.

ilə əməkdaşlıq, daxili və xarici bazarlara məhsul və xidmətlərin kollektiv formada irəlilədilməsi üzrə fəaliyyətin əlaqələndirilməsi praktikası da daxil olmaqla klaster iştirakçıları arasında səmərəli qarşılıqlı fəaliyyətin mövcudluğu aid edilir.

Dünya praktikasında mövcud olan konsepsiya və metodologiya əsasında klasterlərin aşağıdakı əlamətlərə: ərazini əhatə etmə və klasterin inkişaf səviyyəsinə; istehsal edilən məhsulun yeni olmasına; ölçüsünə və sahə mənsubiyyətinə; innovativlik dərəcəsinə; biliklərin istifadəsi və mübadiləsi sistemində roluna; klaster iştirakçılarının aqreqasiya səviyyəsinə; klaster iştirakçılarının xarakterinə və praktikyönümlü fundamental elmlərin tətbiqinə görə təsnifatı aparılmışdır (3, səh. 73-78).

Klaster metodologiyasının əsasında "müasir innovativ məhsulun" yaradılmasına yönəlik iqtisadi münasibətlər sisteminin yeni formasının nəzərdən keçirilməsi dursa da klaster mürəkkəb iqtisadi sistem kimi xarakterizə olunur.

Klaster sistemi aşağıdakı ümumi xüsusiyyətlərə malikdir:

- bütün iqtisadi sistemdə uzunmüddətli təsərrüfat, innovativ və digər strategiyaları müəyyənləşdirən lider müəssisənin mövcudluğu;
- klaster sisteminin iştirakçılarının - əsas təsərrüfat subyektlərinin ərazicə lokallaşdırılması;
- iştirakçılar tərəfindən qeyri-kommersiya birliklərinin yaradılması, bu birliyə iştirakçıların könüllü daxil olması və əlaqələndirici təşkilatın və saytın olması;
- klaster sistemi daxilində, strateji təsərrüfat əlaqələrinin (o cümlədən regional, regionlararası, ölkə daxili, beynəlxalq) dayanıqlığı;
- ümummilli və regional inkişaf proqramları, investisiya layihələri, innovasiya prosesləri çərçivəsində klaster iştirakçılarının qarşılıqlı fəaliyyətinin uzunmüddətli koordinasiyası;
- korporativ idarəetmə sisteminin, biznes proseslərə nəzarətin, kollektiv təsərrüfat monitorinqinin mövcudluğu.

Qeyd edilən ümumi xüsusiyyətlərə uyğun olaraq, klaster sistemi fəaliyyətin strukturu, ölçüsü və növündən asılı olaraq üç prinsip əsasında formalaşır:

- potensial iştirakçıların maraqlarının ümumiliyi - eyni və ya qarşılıqlı əlaqədə olan fəaliyyət sahələri, ümumi bazar və ya aktivlik sferası;
- konsentrasiya-müntəzəm əlaqələr üçün əlverişli olan yerləşmə;
- qarşılıqlı fəaliyyət-çoxsaylı müxtəlif formal və ya qeyri-formal münasibətlərin qarşılıqlı əlaqəsi, qarşılıqlı asılılığı.

Təbii ki, klaster sisteminin maliyyələşmə mexanizmi mühüm hesab edilir. Klasterin fəaliyyəti üçün əhəmiyyət kəsb edən xərc maddələri əsasən klasterin yaradılmasına, infrastrukturun inkişafına, eləcə də klaster daxilində ayrı-ayrı layihələrin və proqramların reallaşdırılmasına çəkilən xərclərdən ibarətdir. Klasterin yaradılması üçün tələb olunan maliyyə resursları əsasən dövlət büdcəsi və ya iri sponsor (məsələn, bu, klasterin özəyini təşkil edən müəssisə) hesabına ödənilir. İnfrastrukturun və klaster daxilində ayrı-ayrı layihələrin maliyyələşdirilməsi həm qarışıq-iştirakçı müəssisələrin üzvlük haqları və büdcə maliyyələşməsi (Almaniyada geniş yayılmışdır) əsasında, həm də büdcə resursları olmadan və ya minimum dərəcədə iştirak etməklə (Böyük Britaniya üçün xarakterikdir) həyata keçirilir. Fikrimizcə, Azərbaycan Respublikası üçün məqsədli proqramların reallaşmasına xidmət edən müxtəlif səviyyəli büdcə resursları ilə klaster iştirakçılarının formalaşdırdığı xüsusi fondlarda toplanan

Audit 1 (2020), Cild 27, səh. 94-103.
Audit 1 (2020), Vol. 27, pp. 94-103.

vəsaitlərin inteqrasiyası daha optimal variant hesab oluna bilər.

Klasterlər rəqabətqabiliyyətinin və innovativ aktivliyin inkişaf etdirilməsi məqsədi ilə müxtəlif səviyyəli dövlət orqanlarının, eləcə də kifayət qədər kapitala, elmi-texniki potensiala, əmək resurslarına malik olan qabaqcıl müəssisənin təşəbbüsü ilə yaradılır. Klaster iştirakçıları arasında qarşılıqlı etimad və onun səviyyəsinin yüksəldilməsi bir qayda olaraq bir qədər riskli innovativ layihələrə tədricən keçid prosesi zamanı baş verir. Bir proses olaraq klasterin yaradılması aşağıdakı mərhələlərdən ibarətdir:

- potensial iştirakçıların motivasiyası;
- ümumi innovativ, klaster strategiyasının, eləcə də pilot və strateji layihələrinin işlənib hazırlanması;
- innovativ layihələşdirmə.

Klasterləşmə əsasında iqtisadiyyatın innovativ inkişafı təkcə biznes vahidlərinin deyil, eyni zamanda dövlətin də təşəbbüsünü və onların birgə fəaliyyətini nəzərdə tutur. Hesab edirik ki, klaster iştirakçılarının klasterin formalaşması mərhələsində həvəsləndirilməsini təkcə məqsədli maliyyələşmə proqramları vasitəsi ilə deyil, həmçinin vergiqoyma sahəsində xüsusi qanunvericilik aktlarını formalaşdırmaq yolu ilə dövlət öz üzərinə götürməlidir. Bundan başqa, innovativ fəaliyyətin inkişafını, insan kapitalının, əmək resurslarının, insan faktoru problemlərini, infrastrukturun maliyyələşdirilməsi üçün formal maneələrin aradan qaldırılmasını nəzərdə tutan "klaster siyasətini" formalaşdırmaq və qiymətləndirmək tələb olunur. Klaster siyasəti konkret sahələrin, regionların və bütövlükdə iqtisadiyyatın inkişaf problemlərinin həll edilməsinə yönəlib. Klasterin inkişafı zamanı bütün səviyyələrdə inzibati orqanların, elm-təhsil müəssisələrinin və sahibkarların funksiyaları bir-biri ilə əlaqəli olmalı və bir-birini tamamlamalıdır. Xüsusi olaraq bələdiyyələr, klasterləşmə proseslərinin təşəbbüskarı kimi çıxış etməli və klaster iştirakçılarının fəaliyyətinə hərtərəfli köməklik göstərməlidir. Bələdiyyələr, iqtisadiyyatın müxtəlif subyektləri arasında qarşılıqlı münasibətlərin formalaşmasına aktiv təsir etməlidirlər. Klasterin inkişafı ərazinin, regionun inkişafından kənarda mümkün deyil və bütövlükdə səmərəsiz hesab olunur. Aydındır ki, klasterlər əlverişli rəqabət mühiti formalaşdırmaqla və rəqabəti həvəsləndirməklə açıq sistem hesab olunurlar. Təbii ki, onların məqsədi qiymətlər üçün müəyyən hədd müəyyənləşdirmək və ya rəqabəti məhdudlaşdırmaqdan ibarət deyil.

İnformasiyaların qarşılıqlı mübadiləsi, elmi tədqiqat işlərinin birgə aparılması rəqabəti məhdudlaşdırmamaq şərti ilə firmaların rəqabətqabiliyyətinin inkişaf etdirilməsinə istiqamətlənib. Bunun üçün iqtisadi inkişafın müasir mərhələsində klasterlərin inkişaf etdirilməsi üçün biznes və regional hakimiyyət orqanları arasında konsensusa nail olunmalıdır (2, səh. 131-138).

Klasterləşmə adı altında klaster daxilində müəssisələrin birləşməsi üçün dövlət və ictimai institutlar tərəfindən aparılan təşkilati-iqtisadi tədbirlər kompleksi başa düşülür. Dövlət tərəfindən aparılan xüsusi tədbirlərin zəruriliyi klaster siyasəti məsələsini ortaya çıxarır.

Beləliklə, aparılan metodoloji təhlillərin nəticələri ölkəmizdə iqtisadi klasterləşmə prosesinin effektivliyinin yüksəldilməsi üçün bir sıra sistemli yanaşmaların aparılmasını tələb edir:

Audit 1 (2020), Cild 27, səh. 94-103.
Audit 1 (2020), Vol. 27, pp. 94-103.

- klaster təşəbbüsü və klaster texnologiyasının formalaşması və inkişafı ilə bağlı proseslər klasterin inkişaf etdirilməsi üzrə strateji idarəetmə obyektlərinin tərkibinə daxil edilməlidir;
- klaster konsaltinqi vasitəsi ilə iqtisadi klasterlərin yaradılması, formalaşması və inkişafı proseslərində dövlətin çox funksiyalı rolu nəzərə alınmalıdır;
- dövlət və iqtisadi klasterləşdirmə prosesinin iştirakçıları üçün böyük əhəmiyyət kəsb edən planlaşdırma, müdafiənin təşkili və monitorinqin nəticələri gözlənilən effektin əldə edilməsinə istiqamətlənməlidir;
- dövlət hakimiyyət və idarəetmə orqanlarının iqtisadi klasterləşmə proseslərinə idarəetmə təsirlərini təmin edən yüksək səviyyəli klaster texnologiyalarına nail olunmalıdır;
- ölkənin sosial-iqtisadi məkanında klasterləşmə proseslərinin inkişaf etdirilməsi üçün dövlət-xüsusi tərəfdaşlıq mexanizminin tətbiq sferası genişləndirilməlidir;
- klasterlərin işlənib hazırlanması və həyata keçirilməsi zamanı iqtisadi klasterləşmə prosesinin müxtəlif mərhələləri arasında ahəngdarlıq təmin edilməlidir.

N Ə T İ C Ə

Klaster bazarın hərəkətverici qüvvəsi hesabına məkanca formalaşan müstəqil strukturdur və buna uyğun olaraq dövlət hakimiyyət orqanları klasterlərin direktiv inkişafına səy göstərmək əvəzində onların sürətli və müvəffəq inkişafı üçün əlverişli şərait yaratmalıdır. Bunun üçün isə ilk növbədə iqtisadi klasterləşmənin effektiv metodologiyası yaradılmalıdır.

Ədəbiyyat siyahısı:

1.Денисов Г.А. Преимущества применения кластерного подхода в целях развития экономики региона. //Вестник Майкопского гос.ун-та- 2010.- №2 –с.106-109.

2. Корчагина Н.А. Оценка реализации кластерных инициатив в туризме //Вестник Астраханского гос. технич. ун-та. Сер.Экономика.- 2010 -№1.- с. 131-138

3.Миролюбова Т.В. Международное сотрудничества между регионами как элемент государственного управления экономическим развитием на региональном уровне. // Вестник РУДН.Сер. Экономика.-2008.- № 3. с. 73-78

4.Porter M. Competitive Advantage of Nations. New York. Free Press,1990

5. Thomas Andersson, Sylvia Schwaag Serger, Jens Sorvik, Emily Wise hansson. The cluster policy whitebook.//İKED 2004

6. Christian H. M. Ketels.// The development of the cluster concept—present experiences and further developments. Harvard Business School. 2003

Bu iş Azərbaycan Respublikasının Prezidenti yanında Elmin İnkişaf Fondunun maliyyə yardımı ilə yerinə yetirilmişdir – ***Qrant - № EİF BGM-3-BRFTF-2+ /2017-15/15/5***

Audit 1 (2020), Cild 27, səh. 94-103.
Audit 1 (2020), Vol. 27, pp. 94-103.

Ахмедова Турана Вахид кызы,
доктор философии по экономике,
Бакинский Университет Бизнеса,
Адрес: ул. Г.Зардаби 88а, AZ1122, Баку, Азербайджан,
E-mail: turanaxmedov@mail.ru,
© Ахмедова Т.В., 2020

МЕТОДОЛОГИЧЕСКИЕ АСПЕКТЫ КЛАСТЕРНОГО ПОДХОДА

A B S T R A C T

Цель исследования. Сегодня кластеры важны в мире для развития экономики, повышения ее конкурентоспособности, перехода страны к инновационному пути развития. Целью исследования является выявление методологических аспектов кластерного подхода как важного инструмента инновационного развития.

Методология исследования. В статье обобщены основные характеристики кластера как объекта экономического анализа, показаны основные направления инновационной экономики, обеспечивающей реализацию процесса экономической кластеризации, охарактеризованы основные элементы кластерной системы, показана необходимость формирования методологии экономической кластеризации.

Теоретическая значимость исследования. Кластерная стратегия считается важным инструментом инновационного развития в большинстве стран. Кластерный подход очень перспективен. Формирование и развитие кластеров может быть использовано как важный фактор повышения конкурентоспособности и эффективности как страны в целом, так и ее регионов.

Результаты исследования. Работа выполнена при финансовой поддержке Фонда развития науки при Президенте Азербайджанской Республики - Грант - № EIF BGM-3-BRFTF-2 + / 2017-15 / 15/5

Оригинальность и научная новизна исследования. На основании мирового опыта решения проблем, обсуждаемых в статье, были сформированы подходы в соответствии с требованиями современных условий. Исследования проводились и систематизировались при изучении кластеров. Были выявлены различные особенности кластерного подхода в современном мире.

Ключевые слова: инновационная экономика, кластер, кластерный подход, кластерная стратегия, методология экономической кластеризации.

Audit 1 (2020), Cild 27, səh. 94-103.
Audit 1 (2020), Vol. 27, pp. 94-103.

Turana Vahid Akhmedova, Ph.D. (Econ.),
Baku Business University,
Address: 88a, H.Zardabi Str., AZ1122, Baku, Azerbaijan,
E-mail:turanaxmedov@mail.ru,
© T.V.Akhmedova, 2020

METHODOLOGICAL ASPECTS OF CLUSTER APPROACH

A B S T R A C T

The purpose of the research. Today, clusters in the world are important for the development of the economy, increasing its competitiveness, the country's transition to innovative development. The aim of the study is to identify methodological aspects of the cluster approach as an important tool for innovative development.

The methodology of the research. The article summarizes the main characteristics of the cluster as an object of economic analysis, shows the main directions of the innovative economy that ensures the implementation of the economic clustering process, characterizes the main elements of the cluster system, shows the need to form a methodology of economic clustering.

The practical importance of the research. Cluster strategy is considered an important tool for innovative development in most countries. The cluster approach is very promising. The formation and development of clusters can be used as an important factor in improving the competitiveness and efficiency of the country as a whole, as well as its regions.

The results of the research. Fund under the President of the Republic of Azerbaijan - Grant - № EIF BGM-3-BRFTF-2 + / 2017-15 / 15/5

The originality and scientific novelty of the research. Based on the world experience in solving the problems discussed in the article, approaches have been formed in accordance with the requirements of modern conditions. Research has been conducted and systematized in the study of clusters. Different features of the cluster approach have been identified in modern times.

Keywords: innovative economy, cluster, cluster approach, cluster strategy, method of economical calibration.

Məqalə redaksiyaya daxil olmuşdur: 20.12.2019
Təkrar işləməyə göndərilmişdir: 08.01.2020
Çapa qəbul olunmuşdur: 28.01.2020

Дата поступления статьи в редакцию: 20.12.2019
Отправлено на повторную обработку: 08.01.2020
Принято к печати: 28.01.2020

The date of the admission of the article to the editorial office: 20.12.2019
Send for reprocessing: 08.01.2020
Accepted for publication: 28.01.2020